**Mirzə M.** Ürəyində böyük vətən sevgisi olan cəsur zabit // Respublika. - 2024. - 25 avqust. - **№ 182**. - S. 14.

**Millətinə, dövlətinə, torpağına bağlılığı, vətənpərvərliyi ilə gələcək nəsillərə örnək olan qəhrəman oğullardan biri də şəhid Famil Əhmədzadədir. Şəhidliyi ilə Azərbaycan müəllimliyinin obrazını daha da zənginləşdirməyə, onu ölümsüz etməyə nail oldu. Şəhadət Familin həyatının ən mükəmməl dərsi idi. O, sübut etdi ki, yer üzündə ən uca ad şəhidlikdir, müəllimin isə ən mükəmməl dərsi öz şəxsi nümunəsidir.**

Famil 23 sentyabr 1975-ci ildə Bakı şəhəri Xətai rayonunda anadan olub. Ailəsi İsmayıllıya köçdüyünə görə Famil 1982-ci ildə İsmayıllı şəhər 3 nömrəli tam orta məktəbin birinci sinfinə qəbul edilib. Orta təhsil illərində savadlı, ictimai işlərdə fəal şagirdlərdən biri kimi tanınıb. 1992-ci ildə orta məktəbi əlaçı məzun kimi başa vurub.

Orta məktəbi bitirdiyi il Bakı Sosial İdarəetmə və Politologiya İnstitutunun (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) Politologiya fakültəsinə qəbul olub. Akademiyanın sayılıb-seçilən tələbələrindən olan Famil 1997-ci ildə ali təhsilini fərqlənmə diplomu ilə başa vurub. O, hərbi kafedradan məzun olduğu üçün leytenant rütbəsi alıb. Tarix müəllimi Famil Əhmədzadə 1997-ci ildə məzun olduğu İsmayıllı şəhər 3 nömrəli məktəb-liseydə pedaqoji fəaliyyətə başlayıb. 1999-cu ilin əvvəllərində Naxçıvan Muxtar Respublikasına hərbi xidmətə yollanıb. 2000-ci ilin 9 noyabrında hərbi xidmətdən baş leytenant kimi tərxis olunub. Hərbi xidmətdən sonra yenidən doğma məktəbində pedaqoji fəaliyyətini davam etdirib.

Famil 2020-ci ilin 27 sentyabrında - Vətən müharibəsi başlanan gün könüllü olaraq cəbhəyə yollanıb. Ürəyində böyük vətən sevgisi yaşadan cəsur zabit, müəllim Tərtər rayonunun Talış və Suqovuşan kəndlərinin azad edilməsində iştirak edib. Oktyabr ayının 13-dən 14-nə keçən gecə Talış və Suqovuşan uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Şəhid Famil Əhmədzadənin nəşi noyabrın 3-də əvvəlcə yaşadığı evə, daha sonra İsmayıllı rayonu Şəhidlər xiyabanına gətirilərək, şəhər sakinlərinin izdihamlı yürüşü ilə dəfn edilib. İsmayıllı rayonunda küçələrdən birinə Familin adı verilib.

Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Silahlı Qüvvələrin hərbi qulluqçusu

Əhmədzadə Famil Ağaəhməd oğlu ölümündən sonra 3-cü dərəcəli "Rəşadət ordeni", "Vətən uğrunda", "Döyüşdə fərqlənməyə görə" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.